*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (4) 2025*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:17.04.2025*
*Kabul tarihi |Accepted:13.07.2025*
*Yayın tarihi |Published:25.08.2025*

**Rena Asadova**

**https://orcid.org/0000-0002-0310-6201**
*Doctor of Philosophy in History, Associate Professor Institute of History of ANAS, Azerbaijan University, Azerbaijan, renabeyler@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Asadova, R. (2025). Qazax Qəzasının Əhalisi (XIX Əsrin İkinci Yarısı – XX Əsrin Əvvəlləri). *Akademik Tarih ve Düşünce Dergisi, 12* (4), 1069-1094.

# Qazax Qəzasının Əhalisi (XIX Əsrin İkinci Yarısı – XX Əsrin Əvvəlləri)

***Xülasə***

*Qazax qəzasında XIX əsrin 60-cı illərindən etibarən əhalinin sayı, etnik tərkibi və iqtisadi həyatında baş vermiş mühüm dəyişikliklər Rusiya kameral təsvirləri, siyahıyaalma sənədləri və digər mənbələr əsasında araşdırılmışdır. Rusiya hakimiyyət nümayəndələrinin məqsədyönlü antiazərbaycan siyasətinin öyrənilməsinə xüsusi diqqət yetirilmişdir. Erməni və rus ailələrinin məskunlaşdırılmasının yerli azərbaycanlı əhalinin torpaqla təmin edilməsinə və ümumiyyətlə həyat şəraitinə ağır təsiri çoxsaylı statistik materiallarla diqqətə çatdırılmışdır. Araşdırmada həmçinin həmin dövrdə baş verən etno-demoqrafik proseslərin regionun uzunmüddətli sosial-iqtisadi inkişafına təsir mexanizmləri də ümumiləşdirilmişdir.*

***Açar sözlər:*** *Qazax Qəzası, Rusların və Ermənilərin Köçürülməsi, Etno-Demoqrafik Dəyişikliklər*

# Population of the Qazakh District (Second Half of the 19th Century – Early 20th Century)

***Abstract***

*Major changes in the population size, ethnic composition, and economic life of Qazakh District since the 1860s have been examined on the basis of Russian* kameral *descriptions, census documents, and other sources. Special attention has been given to the study of the deliberate anti-Azerbaijani policy of the Russian imperial authorities. The heavy impact of the settlement of Armenian and Russian families on the land provision and overall living conditions of the local Azerbaijani population has been highlighted through extensive statistical data. The study also summarizes the mechanisms by which*

BY NC
Creative Commons Licence

*these ethno-demographic processes of that period influenced the long-term socio-economic development of the region.*

***Keywords:*** *Qazakh District, resettlement of Russians and Armenians, Ethno-Demographic Changes*

## Giriş

Azərbaycanın şimal hissəsinin Rusiya tərəfindən işğalının başlanğıc mərhələsində Qazax sultanlığı ilk ələ keçirilən bölgələrimizdən biri olmuşdur. Rus qaynaqlarında işğal zamanından distansiya adlanan bu bölgənin idarəçiliyində dərhal sultan Nəsib ağanın səlahiyyətləri kəskin şəkildə məhdudlaşdırıldı. Gürcü çarlarının sultanlığa rəhbərlik üçün yaratdığı murov (mourov) vəzifəsi saxlandı, daha öncə bu vəzifəni icra edən gürcü əsilzadəsi Gersevan Çavçavadze rus komandanlığı tərəfindən vəzifəsində saxlandı və pristav adlandı.

İşğaldan sonrakı dövrdə Qazax distansiyası inzibati-ərazi bölgüsü baxımından bir neçə dəfə dəyişikliyə məruz qaldı və tabeçiliyi də fərqli oldu. İlk mərhələdə Qazax bölgəsi digər "müsəlman distansiyaları" ilə birlikdə Gürcüstan quberniyasının Lori qəzasına daxil edildi (Vedomosti…, AKAK, 1866). 1819-cu ildə sultan hakimiyyəti qəti ləğv edildi, həmin vaxt Qazax sultanı olan Mustafa ağa Kursk quberniyasına sürgünə göndərildi. Qazax distansiyasının idarəçiliyi bütünlüklə rus ştab-zabiti, baş pristav podpolkovnik Lapinskiyə keçdi (Otnoşeniye…, AKAK, 1874). 1840-cı il inzibati-ərazi bölgüsü zamanı Qazax və Şəmşəddil distansiyaları nahiyə statusu ilə Yelizavetpol qəzasına, bu qəza da Gürcü-İmereti quberniyasının tərkibinə daxil edildi. 1846-cı il dekabrın 14-də həyata keçirilən yeni inzibati-ərazi bölgüsü zamanı Qazax və Şəmşəddil nahiyələri Yelizavetpol qəzası daxilində qalmaqla Tiflis quberniyasının tərkibinə verildi.

1867-ci il dekabrın 9-da Qazax və Şəmşəddil nahiyələri birləşdirildi və onların əsasında Qazax qəzası təşkil olundu. Qazax qəzası həmin vaxt yeni yaradılan Yelizavetpol quberniyasının tərkibinə daxil edildi. Yelizavetpol quberniyasının ilk başçısı həqiqi dövlət müşaviri F. Y. Bulatov, Qazax qəzasının ilk rəisi rotmitser İ. A. Şmerlinq təyin olundular (Kavkazskiy kalendar na 1869 g., 1868). Həmin vaxt Qazax qəzasının ərazisi 7 173 kv. verst (8 151 kv. km) idi (Kavkazskiy kalendar na 1870 g., 1869). Sonrakı onilliklərdə qəzanın ərazisinin bir hissəsinin Yelizavetpol qəzasına verilməsi səbəbindən bu rəqəm xeyli azaldı. 1880-ci illərin əvvəlində qəzanın ərazisinin 6 103 kv. verst (6 933 kv. km) (Kavkazskiy kalendar na 1885 g., 1884, s. 232), XX əsrin əvvəlində isə 5 096,31 kv. verst (5 800 kv. km) olduğu qeyd edilmişdir (Kavkazskiy kalendar na 1917 g., 1916). Qazax qəzası İrəvan quberniyasının Novobayazet qəzası ilə – 75 verst, Aleksandropol qəzası ilə – 20 verst, Borçalı

qəzası ilə – 100 verst, Tiflis qəzası ilə – 39 verst, Siqnax qəzası ilə – 88 verst, Yelizavetpol qəzası ilə – 84 verst məsafədə həmsərhəd idi. Qəzanın ərazisinə indiki Qazax, Ağstafa, Tovuz rayonları və SSRİ yarandığı zaman Ermənistana verilmiş əzəli Azərbaycan torpaqları olan Dilican dərəsi və Göyçə gölünə qədər olan yerlər daxil idi. Qəza mərkəzi olan Qazax 1909-cu ildə şəhər statusu aldı.

1918-ci ildə Azərbaycan və Gürcüstan öz müstəqilliyini elan etdikdən sonra hər iki respublika arasında ərazi-sərhəd məsələləri müzakirə olunmuş və əsasən dinc yolla həll edilmişdi. Nəticədə Qazax qəzası və Zaqatala dairəsi Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində qalmışdı. 1918-1920 illərdə Qazax qəzası Gəncə quberniyasının tərkibinə daxil idi. 1919-cu ildə Qazax qəzası ərazisinin bir hissəsi əsasında yeni inzibati vahid – Tovuz qəzası yaradıldı, Qazax qəzası isə çox mühüm hərbi-strateji əhəmiyyətinə görə general-qubernatorluğa çevrildi. Sovet Rusiyasının XI Qırmızı Ordusunun təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı və az sonra keçmiş Qazax qəzasının ərazisi bolşeviklər tərəfindən bölüşdürüldü və onun dağlıq hissəsi, Dilican və Qaraqoyunlu dərələri, ümumi ərazinin 44,5 faizi Ermənistan SSR-ə verildi.

## 1. Etno-Demoqrafik Dəyişikliklər

Qazax qəzasının yaradıldığı ilk zamanda – 1868-ci ildə ərazisi 7 173 kv. verst və ya 8 151 kv. km, əhalisinin sayı 88 350 nəfər (o cümlədən 49 075 nəfər kişi, 39 275 nəfər qadın) idi (Kavkazskiy kalendar na 1870 g., 1869, s. 402, 406-407). Bölgə üzrə Salahlı (598 ailə), Şıxılı (556 ailə), Qıraq Kəsəmən (526 ailə) kəndləri tatar ailələrin yaşadığı çox böyük yaşayış məntəqələri, Ağstafa kəndi (8 ailə) isə əksinə, ən kiçik kənd idi (Əhmədli, 2018, s. 23).

Lakin qəza təşkil olunduğu vaxt əhalinin etnik tərkibi haqqında mənbələrdə məlumat olmadığı üçün, daha sonrakı statistik göstəricilərə müraciət etmək lazım gəlmişdir. Bu baxımdan, Qazax qəzasının 1873-cü il üzrə kameral təsvirində əks olunmuş məlumatlar xüsusilə dəyərlidir. Həmin mənbəyə görə, bəhs edilən dövrdə Qazax qəzasının əhalisi 77 601 nəfərdən ibarət idi. Bu dövrdə qəzada 127 kənd və 9 654 ailə (həyət) mövcud idi və 78 kənd və 6 852 ailə tatar əhaliyə, 44 kənd və 2 638 ailə erməni əhalisinə, 5 kənd və 144 ailə molokan – təriqətçi rus əhalisinə aid idi (Yeritsov, 1886). 1885-ci ildə Qazax qəzasında 125 kənd və 98 yeni yaşayış məskəni mövcud idi ki, onlardan 69 kənd və 46 yeni məskən xəzinə torpaqlarında, yerdə qalan 56 kənd və 52 yeni məskən sahibkar torpaqlarında idi. Həmin il qəzada 49 410 nəfər kişi, 36 273 nəfər qadın olmaqla, cəmi 85 685 nəfər yaşayırdı (Kavkazskiy kalendar na 1887 g., 1886). Xəzinə torpaqlarındakı kəndlərin 43-də və 7 yeni məskəndəki 3 088 həyətdə 30

494 nəfər erməni, 23 kənddə və 39 yeni məskəndəki 2 341 həyətdə 18 042 nəfər tatar, 3 kənddəki 190 həyətdə 1 488 nəfər təriqətçi rus yaşayırdı (Yeritsov, 1886). XIX əsrin 70–80-ci illərində Qazax qəzasında əhalinin milli tərkibində baş vermiş dəyişiklikləri izləmək üçün isə qəzanın xəzinə torpaqlarında yaşayan əhalinin milli tərkibinə aid statistik göstəricilərə istinad etmək lazım gəlmişdir. 1873-cü il üzrə kameral təsvirdəki və rus tədqiqatçısı A. Yeritsovun 1885-ci ildə topladığı məlumatlardakı statistik göstəricilər əsasında tərtib edilmiş 1 saylı cədvəl müqayisəli təhlil aparmağa imkan verir.

***1 saylı cədvəl***

***1870-80-ci illərdə Qazax qəzasının xəzinə torpaqlarında yaşayan əhalinin etnik tərkibi*** (Yeritsov, 1886).

| | 1873-cü il | | | | 1885-ci il | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | həyət | əhali | | | həyət | əhali | | |
| | | kişi | qadın | cəmi | | kişi | qadın | cəmi |
| tatar[6] | 2 168 | 9 468 | 7 090 | 16 658 | 2 341 | 10 019 | 8 023 | 18 042 |
| erməni | 2 658 | 13 558 | 10 858 | 24 416 | 3 088 | 16 507 | 13 987 | 30 494 |
| təriqətçi rus | 144 | 892 | 849 | 1 741 | 190 | 716 | 772 | 1 488 |
| **cəmi** | **4 970** | **23 918** | **18 797** | **42 715** | **5 619** | **27 242** | **22 782** | **50 024** |

1 saylı cədvəldən aydın olur ki, 1873-cü ildə Qazax qəzasında xəzinə torpaqlarında 16 658 nəfər tatar, yəni Azərbaycan türkü, 24 416 nəfər erməni, 1 741 nəfər təriqətçi rus olmaqla, cəmi 42 715 nəfər yaşayırdı. Həmin il qəza əhalisinin ümumi sayı 77 601 nəfərdən ibarət olduğu üçün, qalan 34 886 nəfər sahibkar torpaqlarındakı kəndlərdə yaşayan Azərbaycan türkləri idi. Yəni həmin il qəza əhalisinin 51 544 nəfəri və ya 66,4 faizi tatar adlandırılan Azərbaycan türklərini təşkil edən əhali idi. Ermənilər qəza əhalisinin 31,4 faizini, təriqətçi ruslar isə 2,2 faizini təşkil edirdi. 1 saylı cədvəldən həmçinin aydın olur ki, 1885-ci ildə Qazax qəzasında xəzinə torpaqlarında 18 042 nəfər tatar, yəni Azərbaycan türkü, 30 494 nəfər erməni, 1 488 nəfər təriqətçi rus olmaqla, cəmi 50 024 nəfər yaşayırdı. Həmin il qəza əhalisinin ümumi sayı 85 685 nəfərə çatdığı üçün, qalan 35 661 nəfər sahibkar torpaqlarında mövcud olan 56 kənddə yaşayan tatar, yəni Azərbaycan türkü idi. Yəni həmin il qəza əhalisinin 53 703 nəfərini və ya 62,6 faizini Azərbaycan türkləri təşkil edirdi. Həmin vaxt qəza əhalisinin 35,6 faizi ermənilərdən, 1,8 faizi təriqətçi ruslardan ibarət idi. Erməni əhalinin sayındakı artım 1877–1878-ci illərdə Rusiya ilə Osmanlı dövləti arasında baş vermiş müharibə zamanı döyüş əməliyyatları baş verən ərazilərdən erməni əhalinin Cənubi Qafqaza, o cümlədən Qazax qəzasına köçüb məskunlaşması ilə əlaqədar idi. Onu da qeyd etmək lazımdır ki, İradə

Məmmədova məqaləsində Rusiya İmperiyası Hərb Tarix Arxivinin (RİHTA) sənədinə əsaslanaraq XIX əsrin 80–90-cı illərində Qazax qəzasında 48 633 nəfər tatar (Azərbaycan türkü), 1 324 nəfər tat, 160 nəfər udi, 1 687 nəfər rus, 102 nəfər yunan və 33 118 nəfər erməni əhalinin yaşadığını bildirir (Memmedova, 2012; Memmedova, 2015). Bu da erməni və rusların digər ərazilərdən Qazax qəzası ərazisinə köçüb məskunlaşmasından sonra belə qəzada tatarların, yəni Azərbaycan türklərinin üstünlük təşkil etdiklərini göstərir. Qazax bölgəsi sakinlərinin bir kənddən başqa kəndə köçməsi, yeni yaşayış məskənləri salması, nahiyədən başqa ərazilərə köçüb getməsi, eləcə də başqa inzibati-ərazi vahidlərindən Qazax nahiyəsinə köçüb gəlməsi halları da baş verirdi və bu hal mənbələrdə öz əksini tapmışdır. Məsələn, 1860-cı il üzrə kameral təsvirdən aydın olur ki, Yanıqpəyə kəndini Qıraq Kəsəmən kəndindən buraya köçən sakinlər yaratmışdılar. Ağstafa kəndinin sakinləri Kolagir kəndindən, Köhnə Əskipara kəndinin sakinlərinin çoxu Tatar Əskiparası kəndindən, Ağkuhlu (Haqqıxlı) kəndinin sakinləri Alpout kəndindən gəlmişdilər. Cəfərli kəndindən Qıraq Kəsəmən kəndinə xeyli köçənlər olmuş, Qazaxlı kənd sakinlərinin əksəriyyəti Qazaxbəyli, Salahlı və Çaxmaqlı kəndlərindən gəlmişdilər. Polad Ayrımlı kəndini Quşçu Ayrım kəndindən gələnlər, Çaxmaqlı kəndini isə Salahlı kəndindən gələnlər salmışdılar. Şıxılı kəndindən köçənlər isə Məryəm dərəsi kəndini yaratmışdılar (Əhmədli, 2018). Qazax qəzasının o zamankı rus qaynaqlarında müsəlman, türk, Qafqaz tatarı və ya tatar adlandırılan Azərbaycan türklərindən ibarət əhalisi ümumi əhalinin əksəriyyətini təşkil edirdi. Onlar etnik mənsubiyyətə görə qazaxlı, qarapapaq, bayat, ayrımlı, qaraqoyunlu, qaraxanlı, qədirli, qaralar, kəngərli kimi türk tayfalarına aid idilər. Zaman keçdikcə, bu tayfaların nəsilləri bir-biri ilə qaynayıb-qarışmış və etnik birlik yaratmışdılar. XVIII–XIX əsrlərdə bu əhali "Qazax-Şəmşəddil tərəkəmələri" adlanırdı və XIX yüzilliyin 80-ci illərində Qazax qəzasının 125 kəndinin 78-də onlar yaşayırdı (Yeritsov, 1886). Qəza ərazisinin şimal-şərq və şərq hissələrində yaşayan müsəlman əhali şiə, şimal-qərb və qərb hissələrində yaşayanlar isə sünni idilər. Həsənsu çayı boyundakı dərədə məskunlaşmış Tatlı kəndinin müsəlman sakinləri isə İrandan buraya köçürülmüş tatların varisləri idilər. Azərbaycan türkləri Qazax qəzasının əsasən düzənlik hissəsində, az saylı erməni ailələri isə dağlıq hissədə yaşayırdılar. Yalnız xristian əhali yaşayan Kirzi və ya Kirzan adlı kənd istisna idi, yaşayış məntəqəsi Kür çayı sahilində azərbaycanlı əhali yaşayan kəndlərin əhatəsində yerləşirdi. Kirzan kəndi orta yüzilliklərdən udi (udin) tayfasının yaşadığı, 700-dən çox evin (ailənin) olduğu, suvarma kanalları, bağların izlərinin qaldığı iri yaşayış məntəqəsi idi. Burada yaşayan udilərin sonrakı nəsilləri erməni qriqorian məzhəbini qəbul etmiş və erməniləşməyə məruz

qalmışdı. Rus tədqiqatçısı A. Yeritsovun müşahidəsinə görə, XIX əsrin ikinci yarısında udilər ermənicə danışsalar da, özlərinin udi dilini və etnik mənşələrini xatırlayırdılar. 1873-cü ilin kameral təsvirinə görə, Kirzan kəndində 29 ailə və hər iki cinsdən 198 nəfər, 1885-ci ildə isə 26 ailə və 132 nəfər əhali yaşayırdı (Yeritsov, 1886). Bu ailələr bağçılıqla və şərabçılıqla məşğul olurdu və qonşu Azərbaycan türkləri olan ailələrlə müqayisədə daha varlı sayılırdılar. İlk rus təriqətçi ailələri Qazax nahiyəsinə XIX əsrin 40-cı illərində köçürülmüşdülər. Yeni köçürülmüş təriqətçi rus ailələri həmin vaxt bu bölgədə üç yaşayış məntəqəsinin – Qolovino, Mixaylovka və Novo-Dilican kəndlərinin əsasını qoymuşdular. Daha sonrakı onilliklərdə rus təriqətçi ailələri tərəfindən Novo-Saratovka, Novo-İvanovka kəndlərinin bünövrəsi qoyulmuşdu. 1880-ci illərdə Yelizavetpol quberniyasında aparılan sərhəd dəyişikliklərinə əsasən Novo-Saratovka, Novo-İvanovka kəndləri Qazax qəzasından alınıb Yelizavetpol qəzasına verildi. Qolovino, Mixaylovka və Novo-Dilican kəndlərində yaşayan rus təriqətçi əhalisinin bir qismi: Qolovino kəndindən 20 ailə, Novo-Dilican kəndindən 13 ailə Qafqaz canişinliyinin təşviqi ilə həmin dövrdə Rusiyaya yeni birləşdirilmiş Qars vilayətinə köçüb getdi (Yeritsov, 1886). 1 saylı cədvəldə əks olunmuş təriqətçi rus əhalisinin sayında azalma bu səbəblərlə bağlı idi. 1860-cı illərdə Qazax bölgəsində erməni əhalisi tərəfindən xəzinə torpağında Cücəvəng kəndi salındı. Bu kənddə qonşu Borçalı düzənliyindən köçüb gələn erməni ailələri məskunlaşdılar (Yeritsov, 1886). Yeni salınan digər erməni kəndi Qoşavəng idi (Yeritsov, 1886). Ermənilər yaşayan Əskipara kəndinin əhalisi isə düzənlik ərazidəki köhnə yaşayış yerini tərk edib daha yüksək bölgədə meşəlik əraziyə köçdü və nəticədə əvvəlki 84 desyatin əvəzinə 153 desyatin əkinəyararlı əraziyə sahib oldu (Yeritsov, 1886). 1880-ci illərdən etibarən torpaq azlığına və dolanışıq imkanı olmadığına görə digər yerlərə, xüsusən sənaye-ticarət mərkəzlərinə köçüb getmək halları çoxalmaqda idi. Ermənilər daha çox Tiflisə və yeni yaranan Qazax şəhərinə işləməyə gedirdilər. Köçüb gedənlərin vergi və mükəlləfiyyətlərini kənddə qalan əhali ödəməyə məcbur edilirdi.

Bir sıra hallarda isə bütün kənd əhalisi yaşayış yerini dəyişməyə cəhd göstərirdi. Məsələn, Aşağı Ağdan kəndinin erməni əhalisi su qıtlığına və əkinə yararlı torpaq sahələri çatışmazlığına görə başqa daha münasib yerə köçürülmək üçün müraciət etmişdi (Yeritsov, 1886). Lakin qəza rəhbərliyi boş xəzinə torpaqları olmadığını əsas göstərərək, bu müraciəti cavabsız qoymuşdu. 16 həyətdən (ailədən) ibarət kiçik Qaranlıx-dərə kəndinin əhalisi isə xəzinə torpağında yerləşən digər erməni kəndinə – Krdevana köçmək və həmin kəndin bütün torpaqlarını yenidən bölüşdürmək üçün müraciət etmişdi (Yeritsov, 1886). Lakin ən yaxşı torpaq sahələrinə yiyələnmiş Krdevan sakinləri buna qəti şəkildə qarşı çıxmışdılar.

Bundan əlavə, XIX əsrin 70–80-ci illərində xəzinə torpaqlarında yerləşən 43 erməni kəndindən birində – Kurumsulu kəndində ailələrin sayında artım olmamış, Kalaça kəndində isə 17 ailə azalmışdı (Yeritsov, 1886). Azərbaycan türklərinin yaşadığı kəndlərdə də əhalinin hərəkətliliyi müşahidə edilməkdə idi. İlk böyük hərəkətlilik Qazax sultanlığının Rusiya tərəfindən işğal edilməsi zamanı baş vermişdi, yerli Azərbaycan türklərindən ibarət əhali rus ağalığını qəbul etmək istəmədi və kütləvi şəkildə digər bölgələrə köçüb getdi. Növbəti hərəkətlilik 1846-cı il reskriptindən sonra baş verdi. Yerli bəy və ağaların torpaq mülkünə sahiblik hüququnun təsdiq edilməsi, onların torpaqlarında yaşayan və "sahibkar kəndliləri" adlanan əhalinin dövlət vergilərindən əlavə, həm də yerli mülkədarlara vergi və mükəlləfiyyətlər ödəmək məcburiyyətində qalması, sahibkar kəndlilərinin bütün mümkün vasitələrlə xəzinə torpaqlarına köçməyə can atmasını şərtləndirdi. Nəticədə, həmin dövrdə sahibkar torpaqlarındakı kəndlərdə əhalinin sayında əhəmiyyətli dərəcədə azalma baş verdi və əksinə, xəzinə torpaqlarındakı kəndlərdə isə əhalinin sayı ciddi şəkildə artdı. Lakin 1880-ci illərdə ağa torpaqlarında əhalinin sayının daha sürətlə artması müşahidə edilirdi ki, bu da xəzinəyə məxsus torpaqların bir qisminin həmin dövrdə ağalara verilməsi, həmçinin xəzinə torpaqlarında yaşayan kəndlilərin istifadə etdikləri boş sahələrə və meşəlik ərazilərə görə vergi alınmağa başlanması ilə bağlı idi. Nəticədə, dövlət kəndliləri içərisində aztorpaqlı və torpaqsız insanların sayı artmağa başladı və onlar sahibkar kəndlərinə axın etdilər. Məsələn, Həsənsu çayı boyunda xəzinə torpağında yerləşən Göyçə kəndi əhalisinin istifadəsində olan torpaqların 1 700 desyatinlik sahəsi Rusiya çarının göstərişi ilə knyaz Georgi Baqration-Muxranskiyə verildikdən sonra kəndin Azərbaycan türklərini təşkil edən sakinlərinin torpaqla təminatı kəskin şəkildə pisləşdi. 1873-cü il üzrə kameral təsvirə görə Göyçə kəndində 326 ailə yaşadığı halda, ən yaxşı torpaqların müsadirə edildiyi zaman kənddə 2 400 nəfərdən ibarət 380 ailə yaşayırdı. Torpaqları müsadirə edilən ailələr qonşu sahibkar torpaqlarına köçüb getdilər və nəticədə 1885-ci ildə kənddə cəmi 321 ailə qaldı (Yeritsov, 1886). Həmçinin, bəhs edilən dövrdə Əlimərdanlı, Atamağalı, Səmədbəyli və daha bir neçə kəndin əhalisi sürətlə azalmaqda idi. Bundan əlavə, müxtəlif səbəblərdən ayrı-ayrı şəxslərin, ailələrin, kəndlərin də yerdəyişməsi baş verirdi. Məsələn, 1860-cı il kameral təsvirində Salahlı kəndindən Sibirə sürgün edilən üç nəfərin adı qeyd edilmişdir. Bunlar 24 yaşlı Yusif Məmmədxəlil oğlu, 30 yaşlı Molla Mahmud Yusif oğlu və 46 yaşlı Mansır Mustafa oğlu idilər (Əhmədli, 2018). Sürgünün səbəbi göstərilməsə də, bu şəxslərdən birinin molla olması, burada siyasi səbəbin olması ehtimalını artırır. Görünür ki, sürgünə səbəb həmin şəxslərin müridizmə, nəqşibəndilik təriqətinə mənsubiyyətləri olmuşdur. Nəqşibəndilik təriqətinin

Azərbaycandakı görkəmli nümayəndələrindən olan Mir Həmzə Seyid Nigarinin ardıcılları sırasında qeyd edilən Hacı Mahmud Əfəndi Qazax nahiyəsinin Aslanbəyli kəndində doğulmuş və 1891-ci ildə orada vəfat etmişdi. Qazax nahiyəsinin nüfuzlu din xadimlərindən biri olan Hacı Mahmud Əfəndi 1860-cı ilə aid kameral təsvirə görə Aslanbəyli kəndində, ruhanilər üzrə tərtib edilmiş siyahıda qeydə alınmışdır (Əhmədli, 2018). 1863-cü ilin digər rəsmi rus hərbi sənədində İncəli[1] Mahmud Əfəndi Tiflis quberniyasının müridləri siyahısında qeyd olunmuşdur. O, Aslanbəylidə dini fəaliyyətlə məşğul olmuş, bir müddət sonra Həcc ziyarətinə getmişdi. Hacı Mahmud Əfəndi Mir Həmzə Seyid Nigarinin qəbri üzərində türbə və məscid inşa edilməsinin əsas təşəbbüskarı olmuşdu (Məhəmmədcəlil & Xəlilli, 2003). 1860-cı il üzrə kameral təsvirdə sürgünə göndərilənlərin yaşadığı Salahlı kəndindən Osmanlı dövlətinə köçənlərin də olduğu qeyd edilmişdir. Bu fakt yerli əhalinin Rusiya hakimiyyətindən narazılığının göstəricisi idi və Molla Mahmud Yusuf oğlunun və digər iki şəxsin Sibirə sürgün edilməsi, bu narazılığın təşkilatçılarını bölgədən uzaqlaşdırmaq məqsədi güdürdü. 1873-cü ilə aid başqa bir sənəddə də Qazax qəzasındakı üç kəndin sakinlərinin birdəfəlik Osmanlı dövlətinə köçmək tələbi əks olunmuşdu. Kameral təsvirlərin üstün cəhətlərindən biri də ağaların, bəylərin və ruhanilərin adlarının ayrıca siyahı üzrə verilməsidir. 1860-cı ildə apaılmış kameral təsvirdəki siyahıda Salahlı kəndində yaşayan Vəkilovlar və Qayıbovlar, Qazaxlı kəndində yaşayan Şıxlinskilər, eləcə də həmin zümrəyə daxil olan digər adlı-sanlı soyadları qeyd edilmişdir.

1873-cü ildə apaılmış kameral təsvirə görə Qazax qəzasının ərazisi 634 604 desyatin idi və burada 125 kənddə 9 654 həyət (ailə - külfət) mövcud idi ki, onlardan da 4 684-ü ağalara məxsus 56 kənddə məskun idilər. Mülkədar torpaqlarının ümumi sahəsi 134 359 desyatin idi və burada yaşayan əhali ağalara və məliklərə məxsus əkin yeri, bağ və otlaqlardan istifadə edirdilər. Həmin vaxt xüsusi sahibkar ailələri aşağıdakılar idi: çarın torpaq mülkü bağışladığı knyaz Baqration-Muxranski – 1 ailə, erməni[2] məlik Kələntərovların 7 ailəsi və Qazax və Şəmşəddil bölgələrinin tatar[3] ağaları – 432 ailə (Yeritsov, 1886). Qazax-Şəmşəddil ağaları içərisində ən məhşur olanlar Şıxlinskilər, Sultanovlar, Dilbozovlar, Qiyasbəyovlar, Vəkilovlar, Zülqədərovlar, Muradovlar ailələri idilər.

Yerdə qalan 69 kənddə 4 970 ailə (həyət) isə xəzinəyə məxsus olan torpaqda yaşayırdı və 72 831 desyatin pay torpağına malik idi (Yeritsov, 1886, s. 24, 38). Xəzinə torpaqlarının ümumi sahəsi isə 500 245 desyatin idi (Kavkazskiy kalendar na 1885 g., 1884). Qəza üzrə mövcud

---

[1] *Aslanbəyli kəndi Kəmərli və Qaymaqlı kəndləri ilə birlikdə İncə dərəsində yerləşdiyi üçün bu yaşayış məntəqələrinin sakinləri həm də İncəli, İncədərəli adlanırdılar .*
[2] *Alban xristian*
[3] *Azərbaycan Türkü*

torpaq sahələrinin 17 faizi əkin yeri, 1 faizi çəmənlik, 43 faizi qışlaq, 39 faizi yaylaq idi (Kavkazskiy kalendar na 1885 g., 1884). XIX əsrin 70-ci illərində Qazax qəzasının ən böyük yaşayış məntəqələri Azərbaycan türklərindən ibarət əhali yaşayan *Aşağı Salahlı* (2204 nəfər), *1-ci Şıxılı* (2012 nəfər), *Yuxarı Salahlı* (1922 nəfər), *Yuxarı Qıraxkəsəmən* (1899 nəfər) kəndləri, erməni əhali yaşayan *Qaradaş* (1572 nəfər), *Ağasu* (1405 nəfər), *Kulon* (1338 nəfər), *Kotkənd* (1216 nəfər) kəndləri, molokanlar yaşayan *Novo-Saratovka* (1492 nəfər), *Mixaylovka* (1166 nəfər) kəndləri idi (Kavkazskiy kalendar na 1885 g., 1884). *Qazax qəza rəisinin 1883-cü il üzrə hesabatına görə, qəza əhalisinin ümumi sayı ötən 10 il ərzində artaraq 85 135 nəfərə çatmışdı* (Kavkazskiy kalendar na 1885 g., 1884). Bu da keçən 10 il ərzində əhalinin ümum sayının 7 504 nəfər artdığını, əksinə 1868-ci ilə nisbətən 3 225 nəfər azaldığını göstərirdi. Bu azalmanın əsas səbəbi qəza ərazisinin 1868-ci ildəki 7 173 kv.verstdən, yəni 8 163 kv.km-dən 1883-cü ildə 6 933 kv.km-ə qədər ixtisar edilməsi ilə birbaşa bağlı idi.

1873-cü ildə tərtib edilmiş kameral təsvirə görə Qazax və Şəmşəddil distansiyalarının ərazisində yaradılmış Qazax qəzasında 77 601 nəfər yaşaması, Qazax qəza idarəsinin illik məlumatına görə 1879-cu ildə qəzada əhalinin sayının 82 537 nəfərə, 1883-cü ildə isə 85 135 nəfərə qədər artması faktlarına tənqidi yanaşmaq lazımdır. Əhalinin sayındakı artımı göstərən yuxarıdakı rəqəmləri tam dəqiq saymaq olmaz, çünki həm türklər – tatarlar[4], həm də ermənilər arasında vergidən yayınmaq istəyənlər bəzən bütöv bir ailəni, bəzən isə ailənin bəzi üzvlərini gizlətməyə çalışırdılar (Yeritsov, 1886).

*1897-ci ildə keçirilmiş Ümumrusiya siyahıyaalmasına görə, Qazax qəzasında 112 074 nəfər yaşayırdı* ki, bu da Yelizavetpol quberniyası əhalisinin – 878 415 nəfərin 7,3 faizini təşkil edirdi. Qazax qəzasında həmin vaxt əhalinin 64 101 nəfəri Azərbaycan türkü, 43 555 nəfəri erməni, 3 444 nəfəri rus idi [Naliçnoye naseleniye oboyego pola po uyezdam, s ukazaniyem çisla lits preobladayuşih podnıh yazıkov, 1905, c. 6, 31]. Siyahıyaalma keçirildiyi zaman Qazax qəzası əhalisinin 64 117 nəfəri kişi, 48 351 nəfəri qadın idi. Qəza mərkəzi olan Qazax kəndində isə 1 769 nəfər, o cümlədən 1 348 kişi, 421 qadın yaşayırdı (Naseleniye İmperii po Perepisi 28-go Yanvarya 1897 goda po uyezdam, 1897). 1897-ci il Ümumrusiya siyahıyaalmasına görə, Qazax qəzasında əhalinin dini inanclarına görə sayı aşağıdakı kimi idi: 64325 nəfər müsəlman, 43557 nəfər erməni-qriqorian, 1589 nəfər pravoslav idi. Qəza mərkəzi olan Qazax kəndinin özündə isə əhalinin 805 nəfəri erməni-qriqorian, 610 nəfəri müsəlman, 245 nəfəri pravoslav,

[4] *Azərbaycan Türkləri*

102 nəfəri təriqətçi idi (Naliçnoye naseleniye oboyego pola po uyezdam, s ukazaniyem preobladayuşih veroispovedaniy i glavneyşih Sosloviy, 1905).

"1913-cü il üçün "Qafqaz təqvimi" adlı illik topluda dərc olunmuş *1911-ci il üzrə statistik göstəricilərə görə, həmin ilin başlanğıcında Qazax qəzasında 74231 kişi, 55577 qadın, cəmi 129798 nəfər yaşayırdı.* Azərbaycan türklərinin sayı 65229 nəfər, ermənilərin sayı 57781 nəfər, rusların sayı 5440 nəfər idi (*Kavkaz*skiy kalendar na 1913 g., 1912). Bu göstəricilər 1897-ci illə müqayisə edildikdə, keçən 14 il ərzində qəza əhalisinin sayı 17 min nəfərdən çox artmışdı ki, bu artımın 14 min nəfərdən çoxu ermənilərin, 1 min nəfəri rusların və 1 min nəfərdən bir qədər çoxu isə yerli Azərbaycan türklərinin payına düşürdü.

Say etibarı ilə birinci yerdə olan Azərbaycan türklərinə nisbətən erməni və rus əhalisinin sayında kəskin artım bəhs olunan ərəfədə regiona erməni və rusların kütləvi köçürülüb yerləşdirilməsi ilə bağlı idi. Ermənilərin sayında sıçrayış xarakterli bu artım XIX əsrin sonunda Osmanlı imperiyasının Şərq vilayətlərində qiyam qaldırmış ermənilərin cəzadan yayınaraq Cənubi Qafqaza kütləvi köç etməsi ilə bağlı idi. XX əsrin ilk illərində Mərkəzi Rusiya quberniyalarından Cənubi Qafqaza, o cümlədən Yelizavetpol quberniyasının Qazax qəzasına rus ailələrinin köçürülməsinin geniş miqyas alması haqqında ayrıca bəhs edilmişdir.

XIX əsrin ikinci yarısında və XX əsrin ilk onilliklərində Qazax qəzasında əhalinin sayının və etnik tərkibinin necə dəyişməsi 2 saylı cədvəldə əks olunmuşdur.[5]

2 saylı cədvəldən aydın olur ki, Qazax qəzasında bəhs edilən dövrdə Azərbaycan türkləri ümumi əhalinin əksər hissəsini təşkil etmişdir. Lakin artıq yuxarıda qeyd edildiyi kimi, XIX əsrin son illərindən etibarən Osmanlı imperiyasının Şərqi Anadolu vilayətlərindən erməni ailələrinin Cənubi Qafqaza kütləvi köç etməsi bu regionda da erməni əhalinin sayının sürətlə artmasına gətirib çıxarmışdı.

***2 saylı cədvəl***
***XIX əsrin ikinci yarısı – XX əsrin başlanğıcında Qazax qəzasının əhalisi və etnik tərkibi***

| İllər | Əhalinin ümumi sayı | O cümlədən | | |
|---|---|---|---|---|
| | | Azərbaycan türkləri | ermənilər | ruslar |
| 1873 | 77 601 | 51 544 | 24 416 | 1 741 |
| 1885 | 85 685 | 53 703 | 30 494 | 1 488 |

[5] *Cədvəl müəllif tərəfindən kameral təsvir, 1897-ci il siyahıya alması və Qafqaz təqviminin məlumatları əsasında tərtib edilmişdir.*

| | | | | |
|---|---|---|---|---|
| 1889 | 87 677 | 50 517 | 33 963 | 2 997 |
| 1897 | 112 074 | 64 101 | 43 555 | 3 444 |
| 1911 | 129 798 | 65 326 | 57 781 | 5 440 |

## 2. Əhalinin İqtisadi Həyatı

Qazax bölgəsində yaşayan əhalinin əksəriyyətini təşkil edən Azərbaycan türkləri XIX əsrin ikinci yarısında, əvvəlki dövrlərdə olduğu kimi, daha çox maldarlıqla məşğul olur, oturaq həyat tərzindən daha çox yarımköçəri həyat tərzinə üstünlük verirdilər. Çarlıq Rusiyası dövründə bölgə əhalisinin iqtisadi həyatını, təsərrüfat fəaliyyətini araşdıran bəzi müəlliflər yanlışlıqla yarımköçəri həyat tərzinin, bu cür yaşayışın daha az zəhmət tələb etməsi ilə əlaqələndirmişlər. Məsələn, 1830-cu illərdə bu bölgədə olmuş rus tədqiqatçısı D. Zubarevin fikrincə, daxma tikilməsi elə bir çətinlik törətmirdi; məişət əşyaları çox deyildi, həmişə sandıqda saxlanılırdı və bir yerdən başqa yerə daşınması asan idi (Zubarev, 1836a). Ailə bir neçə saat ərzində ev əşyalarını yığışdırıb yola çıxa bilirdi.

Həmin müəllifin düşüncəsinə görə, əkinçilik təsərrüfatının çətinlikləri isə daha çox idi. Əkin sahələrinin suvarılmasındakı çətinliklər onları hətta əkdikləri torpağa da biganə edirdi. Belə ki, arxlar bir neçə adama, əsasən ağalara məxsus olduğuna görə, sakinlər əkdikləri taxılı biçəcəklərinə əmin deyildilər, çünki suyun olub-olmayacağı, əkin yerini suvarmaq imkanı olub-olmayacağı məlum deyildi. Əvəzində yaylağa və qışlağa köçdükləri yollarda onların sürüləri bol otlu örüşlər tapırdı (Zubarev, 1836a). Cənub səması altında mülayim iqlim şəraitində onların çox vaxt daxmaya da ehtiyacı olmurdu. İnsanlar həmişə az yeməklə kifayətləndiklərinə görə, zəruri yiyəcəklərini sürülərindən təmin edirdilər.

Bununla bərabər, D. Zubarev tatarların əksəriyyətinin köçəri maldarlıqla məşğul olmasını qeyd etsə də, onların, aşağıdakı səbəblərə görə, köçəri xalq adlanmasını doğru saymırdı: birincisi, Qazax distansiyasının müsəlman əhalisi maldarlıqla yanaşı, əkinçiliklə də məşğul olurdu. Köçəri xalqlar isə yalnız maldarlıqla məşğul olur, ondan gələn gəlirlə keçinirdilər. İkincisi, Qazax distansiyasında yaşayan tatarların qışlaqdakı yaşayış yerlərində bağı, tərəvəzi, dəyirmanı var idi və onlardan xeyli qazanc əldə edirdilər. Üçüncüsü, yay vaxtı dağlara köçmək, təkcə köçəri həyatın adəti deyildi, dözülməz istilərdən qaçmaqla, həm uşaqları ölümcül xəstəliklərdən qorumaq, həm də mal-qoyunu tələf olmaqdan mühafizə etmək mümkün olurdu (Zubarev, 1836a). XIX əsrin 80-ci illərində Qazax qəzasını qarış-qarış gəzmiş rus tədqiqatçısı A. Yeritsovun məlumatına görə, düzənlik ərazinin iqlimi və torpağı yaşayış üçün, xüsusən də

əkinçilik təsərrüfatı üçün daha az əlverişli idi. Bu fikrini də belə əsaslandırırdı ki, həmin yerlərdə aprel ayından yağışlar kəsilir və oktyabra qədər quraqlıq mövsümü başlayır. Şimal-şərq istiqamətindən əsən quru isti külək isə bütün əkinlərə öldürücü təsir göstərir. Kür çayı boyu düzənlikdə ağ və boz gil torpaqlar havadan rütubət çəkmir və yağan yağış da yerə hopmur. Ona görə də günəşin şüaları dəyən kimi torpağın üzərindəki bütün bitkilər dərhal quruyur. Bunun qarşısını almaq üçün əkin yerlərini müntəzəm şəkildə suvarmaq lazımdır ki, süni suvarma şəbəkələri olmadığından, bu mümkün deyil. Bundan əlavə, həmin torpaqlarda bitkinin inkişafı üçün zəruri maddələr az olduğundan, hətta müntəzəm suvarılan əkin yerlərində də 2–3 ildən sonra məhsuldarlıq kəskin şəkildə aşağı düşür (Yeritsov, 1886).

Deməli, A. Yeritsovun haqlı olaraq qeyd etdiyi kimi, Qazax qəzasının düzənlik bölgələrində yaşayan Azərbaycan türkləri tənbəl olduğuna görə deyil, sadəcə həmin yerlərin süni suvarma olmadan əkinçilik üçün əlverişsiz olduğuna görə, maldarlıqla məşğul olmağa üstünlük verir və qızmar yay aylarını yaylaqlarda keçirirdilər. Əkin yerlərini becərmək və qorumaq üçün aranda qalan insanlar isə qızmar havalardan, içməli su qıtlığından tez-tez ölümlə sonuçlanan müxtəlif xəstəliklərə yoluxurdular.

Qazax qəzasının dağlıq bölgəsində 50 yaylaq var idi. Onların hamısı dövlət mülkiyyətində idi və 81 029 desyatin ərazini əhatə edirdi. Qəzanın cənub və qərb bölgələrini əhatə edən və ümumi ərazinin 1/8 hissəsinə bərabər olan dağlıq hissəsində — Şahdağın ətəklərində və Göyçə gölünə qədər uzanan otlaqlarda yay vaxtı 7 700-ə qədər ailə Qazax qəzasından, 400-ə qədər ailə qonşu qəzalardan alaçıq qurulurdu. Bundan əlavə 340-a qədər ağa və digər imtiyazlı təbəqənin ailələri də yaylağa köçürdülər. Hər ailənin ixtiyarına 9,5 desyatin otlaq sahəsi verilirdi. 1885-ci ildə bu yaylaqlardan istifadə qarşılığında xəzinə 10 min rubl gəlir əldə etmişdi (Yeritsov, 1886).

Bu alaçıqların sakinlərinin ehtiyaclarını qarşılamaq üçün may ayından sentyabrın sonuna kimi Çəmbərək və Mixaylovka kəndlərində yüzdən çox mağaza fəaliyyət göstərirdi (Yeritsov, 1886).

Qazax qəzasında 221 000 desyatin meşəlik ərazi var idi ki, tamamilə dövlətin ixtiyarında idi. Qəzanın çəmənliklərdən meşəliyə keçdiyi, dəniz səviyyəsindən 5 000–6 500 m hündürlükdə olan ərazilərində 2 rus və 2 erməni kəndi yerləşirdi və 362 ailə yaşayırdı. Onların ixtiyarında 10 000 desyatinə kimi yararlı və az yararlı torpaq sahələri vardı. Bu torpaqların yalnız 1/5 hissəsində əkinçiliklə məşğul olurdular. Qalan hissələrdən biçənək və otlaq kimi istifadə edilirdi (Yeritsov, 1886).

Dəniz səviyyəsindən 3 000–5 000 m hündürlükdəki bölgələr yaşayış üçün nisbətən daha əlverişli idi. Bu yerlər də dövlətə məxsus sayılırdı və 11 kənd mövcud idi ki, onların 7-si ermənilərə, 3-ü Azərbaycan türklərinə, 1-i ruslara məxsus idi və bütövlükdə kənddə 753 ailə yaşayırdı. Bu ailələrin pay torpaqları 13 000 desyatindən bir qədər artıq idi. Həmin torpaqların 0,3 hissəsindən əkin üçün, 0,1 hissəsindən biçənək üçün, qalan hissədən də otlaq kimi istifadə edilirdi. Bundan əlavə, dərələrdə, çayların yatağı boyunca 50 desyatinlik sahə tərəvəz və meyvə bağları üçün ayrılmışdı (Yeritsov, 1886). Bu yerlərdə əhali həm əkinçiliklə, həm də maldarlıqla bərabər səviyyədə məşğul olurdu.

Qəzanın dəniz səviyyəsindən 1 000–3 000 m hündürlükdəki hissəsinin cənub bölgələri tamamilə dövlətin ixtiyarında idi, şimal bölgələrdə isə torpağın yarısı dövlətə, digər yarısı mülkədarlara məxsus idi. Bu bölgələrdə dövlətə məxsus torpaqlar 40 600 desyatin idi və həmin ərazilərdə 41 kənd mövcud idi. Həmin kəndlərin 33-ü erməni kəndi idi və XIX əsrin 80-ci illərinin ortalarında 2 475 erməni ailəsi yaşayırdı. Qalan 8 kənddə toplamda 690 ailə Azərbaycan türkü yaşayırdı. Bu ailələrin istifadə etdikləri dövlət torpaqlarının 3 496 desyatini suvarılan, 16 584 desyatini dəmyə əkin yerləri idi. 971 desyatin sahədə üzümlük və digər meyvə bağları mövcud idi. Bundan əlavə, 4 erməni kəndinin 250 desyatin biçənəyi də vardı (Yeritsov, 1886). Mülkədar torpaqlarında 32 kənd var idi və bu kəndlərdə 2 475 ailə Azərbaycan türkü və cəmisi 17 ailə erməni yaşayırdı.

Kür çayı boyunda, dəniz səviyyəsindən 400–1 000 m hündürlükdə ərazilərdə mülkədar torpaqları dövlət torpaqlarından çox idi. Bu ərazilərdə olan mülkədar torpaqlarında Azərbaycan türklərinə məxsus 24 kənd mövcud idi və bu kəndlərdə cəmi 2 522 ailə yaşayırdı (Yeritsov, 1886). Onlar əsasən qoyunçuluqla məşğul olur, sürülərini hər il yazın əvvəlindən payızın sonuna qədər dağ çəmənliklərində otarır, qışda isə Kür çayının sol sahili tərəfdə dövlətə məxsus 100 000 desyatinə çatan Qarayazı düzündə bəsləyirdilər.

Bu zonadakı 9 280 desyatin ərazidən ibarət olan dövlət torpaqlarında mövcud olan 13 kənddə 1 323 Azərbaycan türkü və 26 erməni ailəsi yaşayırdı (Yeritsov, 1886). Həmin torpaqların 3 690 desyatini otlaq (örüş), 335 desyatini kəndli həyəti, 221 desyatini bağ, 80 desyatini biçənək, 1 848 desyatini dəmyə əkini yeri, 3 106 desyatini suvarılan ərazilər idi.

Rus tədqiqatçısı A. Yeritsova görə, Qazax bölgəsinin kəndləri də, onların sakinləri də torpaqla qeyri-bərabər səviyyədə təmin edilmişdilər. Azərbaycan türklərindən ibarət əhali daha yaxşı və geniş düzənlik ərazidəki torpaqlara sahib idilər. Ermənilər isə əsasən dağlarda yaşayır və orada əkin torpaqları az olduğundan, yerli ağaların torpağını icarəyə götürürdülər. XIX əsrin

40-cı illərində Cənubi Qafqaza səyahət etmiş baron fon Haxthausen də öz əsərində bundan bəhs etmişdir. Şəmşəddil mahalını təsvir edən bu prussiyalı zadəgan səyyah Yelizavetpolda görüşdüyü bir rus zabitindən eşitdiyi sözlər əsasında belə bir qənaətə gəlmişdi ki, bu yerlərin əhalisi tatar və ermənilərdən ibarət idi və birincilər əksəriyyət təşkil edirdi (Mustafayev, 2018).

Ermənilər dağlıq bölgələrdə, tatarlar isə daha münbit düzənlik yerlərdə və iri — 100-dən 300-ə qədər evi olan kəndlərdə yaşayırdılar, ermənilərin məskun olduğu yaşayış yerləri daha kiçik və əhəmiyyətsiz idi. Ancaq bununla belə, nədənsə alman səyyah ilk növbədə ermənilərin əkinçiliklə məşğul olduqlarını, buğda, arpa, darı, qarğıdalı və bəzən də kətan yetişdirdiklərini, tatarların isə əsas təsərrüfat sahəsinin maldarlıq olduğunu və onların mal-qara, at və qoyun-quzu saxladıqlarını yazaraq, belə bir nəticəyə gəlir ki, tatarlar, əsasən, varlı olduqları halda tənbəldirlər, ermənilər isə zəhmətsevərdirlər (Mustafayev, 2018).

Kəndlərdə torpağın kəndlilər arasında bölüşdürülməsi isə ya hər bir ailənin ödədiyi verginin miqdarına görə, ya da ağaların iradəsinə, yəni subyektiv yanaşmasına görə müəyyən edilirdi. Torpaqlarının çatışmamasına baxmayaraq, əkinçiliklə Azərbaycan türklərindən daha çox, onlar kimi yerlərini tez-tez dəyişməyən ermənilər məşğul olurdu. Ermənilər ailə başına 1 çetvertdən 12 çetvertə qədər payızlıq, 1 çetvertdən 3 çetvertə qədər yazlıq taxıl əkirdilər. Azərbaycan türklərini təşkil edən kəndlilər isə vəziyyətdən asılı olaraq 1 çetvertdən 10 çetvertə qədər payızlıq, 1 çetvertdən 4 çetvertə qədər yazlıq taxıl əkirdilər (Zubarev, 1836a).

Mixaylovka kəndində yaşayan rus ailələri buğda ilə yanaşı, çovdar da əkib-becərirdilər (Yeritsov, 1886). Bundan əlavə, dağətəyi bölgələrdə yaşayan erməni əhalisi üzümçülüklə də məşğul olurdu. Novo-Dilican kəndində məskunlaşmış molokan ailələri də üzüm bağları salmışdılar.

Qazax nahiyəsinin 1860-cı il üzrə kameral təsvirində qeydə alınan və müxtəlif vergilər ödəyən, mükəlləfiyyətlər icra edən əhali dövlət (xəzinə) və mülkədar torpaqlarında yaşayanlar olmaqla iki qrupa bölünürdü. Ayrıca siyahıya alınan ağalar və bəylər, o cümlədən din xadimləri isə imtiyazlı zümrə olaraq vergi və mükəlləfiyyətlərdən azad idilər. Vergidən azad edilmiş din xadimləri: molla, axund və s. (onlara maaf deyirdilər) vəfat etdikdə, əgər ailəsində bu cür başqa şəxs yox idisə, həmin ailəni yenidən vergi və mükəlləfiyyətlilər ödəyənlərin siyahısına daxil edirdilər. Rusiyaya birləşdirildiyi vaxtdan 1846-cı ilə qədərki dövrdə Qazax və Şəmsəddil nahiyələrində bütün torpaqlar dövlət xəzinəsinə məxsus hesab edilirdi. 1846-cı ilin dekabrında həyata keçirilən növbəti islahata görə, həmin torpaqların bir hissəsi ağalara və bəylərin xüsusi mülkiyyəti kimi təsdiq edildi, digər hissəsi isə yenə də dövlət (xəzinə) mülkiyyətində qaldı.

Mülkədar torpaqları daha keyfiyyətli və məhsuldar olduğuna görə, sakinlər onlardan torpaq götürüb becərməyə maraqlı idilər. Lakin bu zaman onların həm mülkədara icarə haqqı ödəməli olması, həm də dövlətə vergi verməl追ri, artıq yuxarıda qeyd edildiyi kimi, çəkindirici faktor idi. Dövlət torpaqlarında yaşayanlar isə onu icma şəklində əkib-becərirdilər. Molokanlar və ermənilər arasında rast gəlinməsə də, 1885-ci ilin statistikasına görə, türklərin təxminən 7 faizi ümumiyyətlə torpaqsız qalmışdılar və səfil həyatı sürürdülər (Yeritsov, 1886). Xəzinə torpaqlarında yaşayan tatarlarda torpaqdan istifadə üsulu ermənilər və molokanlardan fərqlənirdi. Yalnız örüş yerləri və biçənəklər kəndlilərin ümumi istifadəsində idi, hər bir ailənin əkin yerləri, bağlar və bostanlar isə dəyişməz qalır və nəsildən nəslə keçirdi.

Torpaqlar heç vaxt yenidən bölüşdürülmür, yalnız ailə üzvlərinin hamısı öldükdə və ya torpağı becərməyə işçi qüvvəsinin çatışmaması səbəbindən vergisini verə bilmədikdə, həmin ailəyə məxsus olan torpaq sahəsi və ya onun bir hissəsi kənddə ən çox ehtiyacı olan ailələr arasında bölüşdürülürdü. Bundan başqa, torpağın bir ailədən başqasına keçməsi alqı-satqı vasitəsilə də həyata keçirilə bilərdi.

Bir qayda olaraq, ailə üzvlərinin sayının artması torpaqların yenidən bölüşdürülməsinə səbəb olmurdu. Hər ailənin payına düşən torpaq sahəsi qeyri-bərabər və müxtəlif idi: 1 əkin günü torpaqdan 30 əkin gününə qədər dəyişə bilirdi (Serebryakov, 1861). Bir əkin günü sahə isə təqribən 1 600 kv. sajenə və ya 0,73 ha-ya bərabər idi.

Molokanlarda həyətyanı, bağ-bostan yerləri və dəyirmanın yerləşdiyi yerlərdən başqa, qalan ərazilər — əkin yerləri və biçənəklər hər il yenidən bölüşdürülürdü. Buraya gəldikləri ilk dövrdə molokanlar əkin yerlərini və biçənəkləri ailələr arasında bərabər bölüşdürmüşdülər. Sonradan bütün vergi və mükəlləfiyyətləri ödəyən, hətta yaşı az olsa belə, kişi cinsindən olanlara əlavə torpaq sahəsi tələb edə bilirdilər (Əhmədli, 2018). Biçənək sahələri fərq qoyulmadan bütün kişi əhalisi arasında bərabər bölünürdü, əkin sahələri isə ailə başçısının torpaq sahəsi almaq üçün tələb etdiyi kişilər arasında bölünürdü və qismən ermənilərin tətbiq etdikləri "hampa-çərək" üsuluna bənzəyirdi.

"Hampa–çərək" sözü ermənicə "hampa" — "qaldırmaq" və türkcə "çərək" — "dörddə bir" sözlərindən yaranmışdı. Bu üsul, ümumən "təsərrüfatı qaldırmaq" və "hissələrə bölmək" mənasını verirdi. Torpaq sahəsi kifayət qədər geniş olduqda, ailənin maddi vəziyyəti işçi qüvvəsindən, hər bir ailədə işləyə bilən şəxslərin sayından asılı olurdu. İş qabiliyyətli şəxslərin çox olduğu ailə azsaylı ailədən daha çox işləyib, daha artıq qazana bilirdi. Ona görə də, çox hallarda ailələr evlənmiş oğlanlarını ayırmayıb onlarla birlikdə yaşamasını saxlayır, beləcə

varlanır və güclənirdi. Lakin öz torpaq payı və işçi qüvvəsi ilə ayrı-ayrı ailələrə bölünənlər isə "çərəkləşirdi". Müəyyən müddətdən sonra "çərək" ailələr varlanıb "hampa" ola bildiyi kimi, bunun əksi də baş verə bilirdi.

Varlı ailələr hörmət qazandığına görə, "hampa" sözü də kəndlilər arasında hörmət qazanmağa başlamışdı. Ailənin zənginliyi isə əkilən torpaq sahəsinin miqdarı və kotanın olub-olmaması ilə ölçülürdü. O ailə ən hörmətli sayılırdı ki, çətinlik çəkmədən əkinə 10–12 cüt öküz və ya kəl, 10-a qədər əkinçi çıxara bilirdi (Əhmədli, 2018). Hampa ailənin gücünü ifadə etmək üçün bu cür ailə nümunə rolunu oynamağa başlamışdı.

Müxtəlif kəndlərdə ailə başına düşən torpaq sahəsi müxtəlif olduğuna görə, "hampa" vahidinə düşən əkin sahəsi də müxtəlif idi: bəzi kəndlərdə 1 hampa ailəsinə 10 desyatin, bəzisində isə 20 desyatin əkin sahəsi düşürdü. Hampa gücündə olmayan ailələr isə 7/8, 3/4, 5/8, 1/2 və s. kimi hesaba alınır və mütənasib miqdarda əkin sahəsi ayrılırdı. Burada torpaqların yenidən bölüşdürülməsi qaydası mövcud olduğuna görə, gücünü artıran çərək ailələr daha artıq əkin sahəsi ala bilirdilər.

"Hampa–çərək" sistemi ilə molokanlardakı torpaq bölgüsü arasındakı fərq isə ondan ibarət idi ki, "hampa–çərək" üsulunda bölgü zamanı təkcə iş qabiliyyətli kişilərin sayı deyil, həm də iş heyvanlarının və kotanın da sayı nəzərə alınırdı (Yeritsov, 1886). Qeyd etmək lazımdır ki, "hampa–çərək" sistemi üç müsəlman kəndində də qəbul edilmişdi. Bunlar Qaraqoyunlu, Polad-Ayrım və Ağkuhlu (Haqqıxlı) kəndləri idi. Onlar tamamilə oturaq həyat tərzi sürən sakinlər idi və onların arasında torpaqsız ailə yox idi. Lakin 1885-ci ildə Butayerli kəndində 3, Qədirli kəndində 6, Qaraxanlı kəndində 11, Şıxılı kəndində isə 11 torpaqsız ailə qeydə alınmışdı (Yeritsov, 1886).

Qazax qəzasında xüsusi mülkiyyətdə olan torpaqlar, artıq yuxarıda qeyd edildiyi kimi, aşağıdakılar idi: ağaların və məliklərin ixtiyarında olan ən məhsuldar torpaqlar, knyaz Baqration-Muxranskiyə bağışlanmış torpaqlar, həmçinin erməni kilsə və monastırlarına məxsus, lakin xəzinənin də iddia etdiyi torpaqlar. Dövlət kəndliləri onların ilk ikisindən geniş istifadə edirdilər. Ağalara və məliklərə məxsus torpaqlar daha böyük və suvarılan sahələr idi. Dövlət kəndlilərinə isə yerdə qalan, o qədər də keyfiyyətli sayılmayan torpaqlar qalmışdı.

Torpaq azlıq edəndə dövlət kəndliləri ağalardan da müəyyən miqdarda əkin və örüş yerlərini icarəyə götürürdülər. Qazax nahiyəsinin 1860-cı ilə aid kameral təsvirində Poylu kəndində mülkədar torpaqlarında yaşayan 117 dövlət kəndlisi ilə yanaşı, knyaz Toma Andronikovun 15 mülkədar kəndlisi də qeydə alınmışdı (Əhmədli, 2018). Onların hamısı

müsəlman türklər idilər. Qazax nahiyəsində əhalinin əsas məşğuliyyət növü heyvandarlıq və əkinçilik idi.

Torpaqsız ailələrdən başqa hamı taxıl əkib becərirdi. Həmin torpaqlar taxılçılıq üçün yararlı olduğuna görə əldə olunan məhsul nəinki yerli əhalinin bu məhsul növünə olan ehtiyacını ödəyirdi, hətta onu qonşu nahiyələrin sakinlərinə də satmağa imkan verirdi. Ən çox əkilən taxıl məhsulu isə buğda və arpa idi. O vaxtkı çarlıq Rusiyasında taxılın məhsuldarlığı "sam" deyilən terminlə ifadə edilirdi. Bu o demək idi ki, torpağa səpilmiş toxum özündən neçə dəfə artıq məhsul veribdir. "Sam 5" o demək idi ki, səpiləndən 5 dəfə artıq məhsul götürülübdür. Məhsuldar illərdə, məsələn, 1881-ci ildə buğdanın məhsuldarlığı Qazax qəzası üzrə "sam 9" olmuşdu (Yeritsov, 1886). Orta məhsuldarlıq isə "sam 6" idi. Qıtlıq ili olan 1879-cu ildə isə məhsuldarlıq "sam 2" olmuşdu.

1830-cu illərə aid mənbə isə Qazax distansiyasında torpağın çox məhsuldar olduğunu, yaxşı halda "sam 15" taxıl götürüldüyünü, orta məhsuldarlığın "sam 7" olduğunu qeyd etmişdi (Zubarev, 1836a). Buğda və arpadan başqa darı, pambıq, molokanların buraya gətirdiyi kartof və qarğıdalı, tütün və başqa bitkilər də əkilirdi. Darı çox yaxşı gəlir gətirirdi, bəzən "sam 90" qədər məhsul verirdi. 1830-cu illərdə hər mövsümdə 200 batman və ya 75 puda qədər pambıq məhsulu götürülürdü. Qadınlar pambıqdan bez toxuyur və ondan da paltar hazırlayırdılar. Bəzi hallarda pambığı bazara çıxarır, 1 pudu 4–5 gümüş rubla satılırdı (Zubarev, 1836a). Şəmşəddil distansiyasında daha çox pambıq becərilirdi. İldə 700 puda qədər pambıq əldə edilirdi (Zubarev, 1836b). Yerli ehtiyaclar üçün sərf ediləndən artıq qalan pambığı Gəncə və Tiflisdə satırdılar.

1830-cu illərin məlumatına görə, Qazax distansiyasında 70 min başdan artıq xırdabuynuzlu, 40 min başdan artıq iribuynuzlu heyvan, 9 500 at vardı. Sağmal inəyin qiyməti 10–12 rubl, öküzün qiyməti 20–30 rubl idi. Madyan at 20–30 rubla, cins minik atları isə 200–400 rubla satılırdı (Zubarev, 1836a). Qazaxda cins dilboz atlar yetişdirilirdi. Dağ Kəsəmən kəndindəki kapitan Həsən ağaya məxsus olan və ən yaxşı sayılan at zavodunda 300-dən artıq at vardı. Bu atlar Qarabağ atlarının cinsindən idi. 1884-cü ilin məlumatına görə Qazax qəzasında 299 500 baş xırdabuynuzlu, 85 500 baş iribuynuzlu heyvan, 10 900 at və qatır vardı (Yeritsov, 1886). Göründüyü kimi, keçən 50 illik müddət ərzində qəzada maldarlıq təsərrüfatı xeyli inkişaf etmişdi.

Qazaxlılar Tiflisdə, Peterburqda, Moskvada və başqa şəhərlərdə keçirilən sərgilərdə iştirak edərək mükafatlar da qazanmışdılar. Məsələn, 1850-ci ildə Peterburqda keçirilən sərgidə bir qazaxlı türk sərgidə nümayiş etdirdiyi qoyun yununa görə bürünc medal almışdı. 1860,

1861, 1863-cü illərdə Tiflisdə təşkil edilmiş sərgilərdə isə Ağqoyunlu kəndinin nümayəndələri arpa, Qaraqoyunlular darı, Xəlfəli və Dağkəsəmənlilər yun cicim, Kəmərlilər yun şala və saxsı qaba görə mükafat almışdılar (Yeritsov, 1886). Göründüyü kimi, bəhs edilən dövrdə Qazax qəzasında əhalinin əsas məşğuliyyətləri əkinçilik və heyvandarlıq olaraq qalsa da, qismən sənətkarlıqla da məşğul olurdu. Hər bir ailədə xalı, kilim, şal və xurcun toxunurdu. Xalça 6–10 rubl gümüş pula, kilim 3–5 rubla, xurcun 1–2 rubla, uzunluğu 7 arşın (təqribən 5 m) olan şal parça isə 3–6 rubla satılırdı (Zubarev, 1836a). Kameral siyahılar əhalidən alınan vergilər barədə geniş məlumat əldə etməyə imkan yaradır. Qazax qəzasının istər dövlət, istərsə də mülkədar torpaqlarında yaşayan kəndliləri evbaşına alınan və "evpulu" adlanan vergi, 15 yaşdan yuxarı kişilərdən alınan "başpulu", ev heyvanlarına görə, həm də kənd təsərrüfatı məhsullarından vergi ödəyir, bundan başqa digər müxtəlif mükəlləfiyyətlər daşıyırdılar (Əhmədli, 2018). Dövlət Palatasının müəyyən etdiyi evbaşına vergilər öz miqdarına görə qeyri-bərabər və müxtəlif idi.

Evbaşına və yığılan məhsuldan alınan vergi ilə yanaşı, digər məqsədlər üçün də əlavə vergi və rüsumlar toplanırdı. Dövrün iqtisadi və siyasi mənzərəsi haqqında maraqlı bilgilər verən bu cür əlavə vergi və rüsumlara aşağıdakı xarakterik misalları göstərmək olar:

*Dağ Kəsəmən məktəbinin saxlanması üçün erməni əhalidən 223 rubl 80 kop.

*Tərsçay şose yolunun tikintisi üçün: ermənilərdən – 19 348,5 rubl, tatarlardan – 14 510,1 rubl, cəmi – 33 888,6 rubl;

*Əhaliyə pulsuz paylanan meşə materiallarının 10%-nin dəyəri olaraq: ermənilərdən – 1 633,45 rubl, tatarlardan – 1 280,5 rubl, molokanlardan – 177,7 rubl, cəmi – 3 091,65 rubl;

*Meşəbəyilərin saxlanmasına görə: ermənilərdən – 1 478,95 rubl, tatarlardan – 1 401,5 rubl, molokanlardan – 82,7 rubl, cəmi – 2 966,15 rubl;

*Yük arabaları tutulmasına görə: ermənilərdən – 2 410,1 rubl, tatarlardan – 2 341,7 rubl, molokanlardan – 90,3 rubl, cəmi – 4 812,1 rubl;

*Qaçaqları təqib edən səyyar silahlı dəstənin saxlanmasına: ermənilərdən – 3 289,15 rubl, tatarlardan – 2 149,4 rubl, molokanlardan – 1 280 rubl, cəmi – 6 718,55 rubl;

*Mirab və cuvarların saxlanmasına (məhsulla): ermənilərdən – 90 rubl, tatarlardan – 786 rubl, cəmi – 876 rubl;

*Sahə qoruqçularının tutulmasına (məhsulla): ermənilərdən – 1 818,2 rubl, tatarlardan – 978,2 rubl, molokanlardan – 485 rubl, cəmi – 3 281,40 rubl;

*Gələn məmurların qarşılanması üçün çəkilən xərclər: ermənilərdən – 1 456,5 rubl, tatarlardan – 890 rubl, molokanlardan – 93 rubl, cəmi – 2 439,5 rubl;

*Bərbərlərə (məhsulla): ermənilərdən – 1 166,5 rubl, tatarlardan – 298 rubl, cəmi – 1 464,5 rubl;

*Keşiş və mollalara (məhsulla): ermənilərdən – 2 158,5 rubl, tatarlardan – 328 rubl, cəmi – 2 486,5 rubl;

*Eçmiadzin və Axpat monastırları üçün (məhsul və pulla): ermənilərdən – 1 221,75 rubl;

*Kənd idarələrinin saxlanması üçün: ermənilərdən – 524,4 rubl, tatarlardan – 285 rubl, molokanlardan – 630 rubl, cəmi – 1 439,4 rubl vergi alınırdı (Əhmədli, 2018).

Beləliklə, etnokonfessional qruplar üzrə əlavə vergi və rüsumların alınması aşağıdakı şəkildə idi: ermənilərdən cəmi – 36 819,8 rubl, tatarlardan – 25 281,4 rubl, molokanlardan – 2 838 rubl. Bütün qəza üzrə cəmi – 64 939,9 rubl. Bütün qəza üzrə vergi və rüsumların hər evə görə orta miqdarı da fərqli idi: ermənilərdən – 23,33 rubl; tatarlardan – 23,4 rubl; molokanlarda 26,46 rubl toplanırdı (Əhmədli, 2018). Molokanlarda bu rəqəmin bir qədər yüksək olması onlarda ailə başına düşən torpaq sahəsinin daha çox olması ilə bağlı idi.

Bütövlükdə təhlil etdikdə, 1884-cü ildə əhalidən alınan vergi və rüsumların xeyli yüksək olduğu görünür. Belə ki, hər ailə il ərzində təqribən 24 rubl vergi ödəməli olurdu. Həm də bu zaman dövlətin görməli olduğu işlər də əhalinin hesabına, onların vergi yükünün ağırlaşdırılması hesabına yerinə yetirilirdi. Məsələn, Tərsçay şose yolunun inşası, qaçaqların təqib edilməsi, qəzaya gələn dövlət məmurlarının xərclərinin qarşılanması üçün toplanan vəsaitlər bu qəbildən idi.

Din xadimlərinə məvacib ödənməsi üçün alınan vergilər də fərqli idi. Qəzada olan 41 erməni ruhani ailəsi üçün ildə erməni əhalidən 1 166,5 rubl, 116 müsəlman ruhani ailələri üçün isə 328 rubl vergi toplanırdı. Halbuki ermənilərdən 3 dəfə çox olan müsəlman din xadimləri üçün ermənilərin ödədiyi vergidən 3 dəfə çox vergi yığılmalı idi. Bundan əlavə erməni ailələri Eçmiadzin və Axpat monastırları üçün hər il 1 221,75 rubl vergi verməli idilər. Qazax qəzasına heç bir aidiyyəti olmayan Eçmiadzin və Axpat monastırları üçün qazaxlı ermənilərdən də pul yığılması Eçmiadzin kilsəsinin təsir dairəsini anlamaq baxımından əhəmiyyətlidir. Erməni dövlətinin mövcud olmadığı dövrlərdə Eçmiadzin kilsəsi faktiki olaraq ermənilər üçün vergi sistemi və büdcəsi olan hakimiyyət orqanı rolunu oynamışdır.

### 3. Qəzanın Rus Əhalisi

Qazax qəzasında rus əhalisinin sayı XIX əsrin ikinci yarısında qeyri-bərabər şəkildə dəyişirdi. Məsələn, 1860–1870-ci illərdə baş verən artımın ardınca, 1877-ci ildəki 4 042 nəfərdən 1889-cu ildə 2 997 nəfərə kimi azalmışdı. Həm də bu azalma daha öncədən bu bölgəyə

köçürülmüş təriqətçi rus əhalisinin azalması hesabına baş vermişdi. 1877-ci ildə Qazax qəzasında 4 024 nəfər təriqətçi yaşadığı halda, 1886-cı ildə Qazax qəzasının 4 yaşayış məntəqəsində 1 687 nəfər: Novo-Dilican kəndində — 372, Qolovino kəndində — 70, Staro-Dilican kəndində — 45, Mixaylovka kəndində — 1 200 nəfər təriqətçi rus yaşayırdı (Kavkazskiy kalendar na 1908 g., 1907). Sonrakı illərdə də bu meyl davam etmişdi. 1889-cu ildə təriqətçi rusların sayı daha da azalaraq 1 570 nəfərə, 1897-ci ildə isə 1 390 nəfərə düşmüşdü. Əvəzində pravoslav məzhəbinə mənsub slavyanların sayı 1877-ci ildəki 18 nəfərdən artaraq, 1889-cu ildə 1 427 nəfərə, 1897-ci ildə isə 1 589 nəfərə çatmışdı.

Qazax qəzasında rusların məskunlaşdırılması XIX əsrin ortalarında başlansa da, rus hakimiyyəti nümayəndələrinin fəal iştirakı ilə XX əsrin ilk illərində xüsusilə geniş miqyas almışdı. Bu dövrdə Qazax qəzasında Alekseyevka, Qolovino, Novıy Delijan, Yelisavetino, Zelyonaya Polyana, Mixaylovka adlı rus kəndləri salınmışdı (Bagirov, 2009). 1902-ci ildə Yelizavetpol quberniyasında 8 089 nəfər (Kanadeyev, 1902), 1909-cu ildə isə 11 844 nəfər (Otçet o slujebnoy poyezdke na Kavkaz, 1909) rus yaşayırdı.

1910-cu ildə Yelizavetpol quberniyasının qərb bölgəsinə, o cümlədən Qazax qəzasına daha 772 rus köçürüldü (Bagirov, 2009). 1911-ci il yanvarın 1-nə olan məlumata görə, Qazax qəzasında 1 765 rus məskunlaşmışdı. Onlara 14 sahədə 24 732 desyatin ayrılmışdı (Bagirov, 2009) və bu göstəriciyə görə Qazax qəzası Yelizavetpol qəzasından sonra ikinci yeri tuturdu. 1914-cü il yanvarın 1-nə olan məlumata görə, Qazax qəzasında 6 119 rus yaşayırdı (Kavkazskiy kalendar na 1915 g., 1914) ki, bu da qəza əhalisinin 4,5 faizini təşkil edirdi.

Qeyd etmək lazımdır ki, Rusiya hakimiyyəti nümayəndələri Cənubi Qafqazın işğal edilməsi zamanından başlayaraq müsəlman-türk əhali yaşayan bölgələrə xristian əhalinin köçürülməsinə başlamış və onlara çoxlu sayda imtiyaz və güzəştlər etmişdi. Bu da bütün regionun, o cümlədən Qazax bölgəsinin etnodemoqrafik vəziyyətinə ciddi təsir etmişdi. Məsələn, Çar hökumətinin 21 dekabr 1849-cu il tarixli qanunu ilə Cənubi Qafqaza köçürülən ailələrə 30–60 desyatin torpaq sahəsi verilməsi müəyyən edildi. Qafqaz canişininin 1852-ci ildə verdiyi sərəncama görə isə Rusiyanın daxili quberniyalarından Yelizavetpol bölgəsinə köçürülən rus ailələrinin hər birinə 60 desyatin torpaq sahəsi verilməsi (Bagirov, 2009) nəzərdə tutulurdu. Daha öncə Cənubi Qafqaza köçürülən alman ailələrinin hər birinə 35 desyatin torpaq sahəsi ayrıldığı (Bagirov, 2009) nəzərə alınarsa, yeni köçürülən rus ailələrinə 2 dəfəyə qədər daha böyük əkin sahəsi verildiyi aydın görünür.

Yelizavetpol quberniyasında iqtisadi həyata dair çoxsaylı məqalə və əsərlərin müəllifi İ. Segalın hesablamalarına görə, XIX əsrin sonunda Yelizavetpol quberniyasında

məskunlaşdırılmış rus ailələrinin sərəncamında 44 795 desyatin torpaq sahəsi var idi və hər ailəyə düşən torpaq sahəsi isə 19,2–76,3 desyatin arasında dəyişirdi (Segal, 1890). Müqayisə üçün qeyd edək ki, Qazax qəzasında həmin dövrdə yerli Azərbaycan türklərini təşkil edən kəndli ailələrinin 72,6 faizinin torpaq payı 0,5–2 desyatin arasında idi (Bagirov, 2009).

Buna baxmayaraq, rus hakimiyyəti nümayəndələri sonrakı onilliklərdə də Qazax qəzasında yerli azərbaycanlı kəndli ailələrinin torpaqları hesabına rusların məskunlaşdırılmasını davam etdirirdi. Belə ki, 1902-ci ildə qəzanın Tovuzkənd adlı yaşayış məntəqəsi yaxınlığında yerləşən və Atamağalı, Tatlı və Köhnəqışlaq kəndlərinin əhalisinin qışlaq kimi istifadə etdiyi Quramyeri 1902-ci ildə rusların məskunlaşdırılması üçün ayrıldı (Bagirov, 2009).

## 4. Qazax Qəzasının Əhalisi Birinci Dünya Müharibəsi Dövründə

1912-ci il üçün "Qafqaz təqvimi"nə görə 1911-ci ildə Qazax qəzasının sahəsi 5 096,31 kv. verst (5 800 kv. km) idi. Qəzanın 34 kənd cəmiyyəti və bu cəmiyyətlərə daxil olan 150 kəndi var idi. Əhalisinin ümumi sayı 73 652 nəfər kişi, 55 134 nəfər qadın olmaqla, bütövlükdə 128 786 nəfər idi (Kavkazskiy kalendar na 1912 g., 1911). Qəzanın inzibati bölgüsü aşağıdakı kimi idi: qəza 4 polis sahəsinə bölünür, hər polis sahəsi kənd cəmiyyətlərinə, onlar da öz növbəsində yaşayış məntəqələrinə bölünürdü.

Qazax qəzasının 1-ci sahəsinin ərazisi 909,79 kv. verst olmaqla, 12 kənd cəmiyyəti və 42 kənddən ibarət idi. Əhalisinin sayı 16 444 nəfər kişi, 10 390 nəfər qadın olmaqla, bütövlükdə 26 534 nəfər idi (Kavkazskiy kalendar na 1912 g., 1911). Qazax qəzasının 2-ci sahəsinin ərazisi 857,34 kv. verst olmaqla, 8 kənd cəmiyyəti və 29 kənddən ibarət idi. Əhalisinin sayı 11 752 nəfər kişi, 9 510 nəfər qadın olmaqla, bütövlükdə 21 262 nəfər idi (Kavkazskiy kalendar na 1912 g., 1911). Qazax qəzasının 3-cü sahəsinin ərazisi 1 160,28 kv. verst olmaqla, 6 kənd cəmiyyəti və 40 kənddən ibarət idi. Əhalisinin sayı 21 210 nəfər kişi, 17 208 nəfər qadın olmaqla, bütövlükdə 38 418 nəfər idi (Kavkazskiy kalendar na 1912 g., 1911). Qazax qəzasının 4-cü sahəsinin ərazisi 2 169,11 kv. verst olmaqla, 8 kənd cəmiyyəti və 39 kənddən ibarət idi. Əhalisinin sayı 23 763 nəfər kişi, 17 464 nəfər qadın olmaqla, bütövlükdə 41 227 nəfər idi (Kavkazskiy kalendar na 1912 g., 1911). Birinci dünya müharibəsi ərəfəsi və dövründə Qazax qəzasında əhalinin sayında və etnik tərkibində xeyli dəyişikliklər baş vermişdi. "Qafqaz təqvimi"nin 1914, 1915, 1916 və 1917-ci illər üzrə toplularının statistika bölmələrindəki məlumatlar əsasında tərtib edilmiş 3 saylı cədvəldə Birinci dünya müharibəsi ərəfəsi və

dövründə Qazax qəzasında əhalinin sayında və etnik tərkibində baş vermiş dəyişikliklər aydın şəkildə əks olunmuşdur.

3 saylı cədvəldəki statistik göstəricilərdən bəlli olur ki, XIX əsrin sonlarında olduğu kimi, XX əsrin ilk onilliklərində Qazax qəzası çoxmillətli region olaraq qalırdı. Birinci dünya müharibəsi ərəfəsinə və dövrünə aid statistik toplulardakı məlumatlar bunu aydın şəkildə göstərir (Kavkazskiy kalendar na 1917 g., 1916; Kavkazskiy kalendar na 1915 g., 1914; Kavkazskiy kalendar na 1914 g., 1913; Kavkazskiy kalendar na 1916 g., 1915).

***3 saylı cədvəl***
***Birinci dünya müharibəsi ərəfəsi və dövründə Qazax qəzasında əhalinin sayı və etnik tərkibi***
(Kavkazskiy kalendar, 1913; 1914; 1915).

| İllər | Əhalinin ümumi sayı | O cümlədən | | |
|---|---|---|---|---|
| | | Azərbaycan türkləri | ermənilər | ruslar |
| 1913 | 132 190 | 64 049 | 59 199 | 5 858 |
| 1914 | 134 546 | 66 908 | 60 120 | 6 119 |
| 1915 | 135 643 | 67 579 | 61 190 | 6 037 |
| 1916 | 137 049 | 68 016 | 61 747 | 6 428 |

“1915-ci il üçün Qafqaz təqvimi”ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1914-cü il yanvarın 1-nə olan məlumata görə Qazax şəhərində, Qazax qəzası ilə birlikdə əhalinin etnik tərkibi çoxmillətli idi və əsas yeri Azərbaycan türkləri tutsa da, ermənilərin və rusların sayı da artmaqda idi. Həmin vaxt Qazax qəzasında, Qazax şəhəri ilə birlikdə 134 546 nəfər əhali yaşayırdı ki, onların 66 908 nəfəri (49,7 faizi) azərbaycanlı, 60 120 nəfəri (44,7 faizi) erməni, 5 858 nəfəri (4,3 faizi) rus, qalanları isə gürcü və digər Avropa xalqlarının nümayəndələri idi (Kavkazskiy kalendar, 1914).

“1916-cı il üçün Qafqaz təqvimi”ndə verilmiş məlumatlara görə, 1915-ci il yanvarın 1-nə olan göstəricilər Birinci dünya müharibəsi başlandıqdan sonra Qazax qəzasında əhalinin sayında və etnik tərkibində ciddi dəyişikliklərin baş vermədiyini göstərir. Qəza əhalisi çoxmillətli olaraq qalırdı. Bu dövrdə Qazax qəzasında (Qazax şəhəri ilə birlikdə) 135 643 nəfər yaşayırdı ki, onların 67 579 nəfəri (49,8 faizi) müsəlman, yəni azərbaycanlı, 61 190 nəfəri (45,1 faizi) erməni, 6 037 nəfəri (4,5 faizi) rus, qalanları isə gürcü və digər xalqların nümayəndələri idi (Kavkazskiy kalendar, 1915). 1914-cü və 1915-ci illərin etno-demoqrafik göstəricilərinin müqayisəsi göstərir ki, Qazax qəzasında (Qazax şəhəri ilə birlikdə) müharibənin birinci ilində

azərbaycanlı əhalinin sayı təxminən 2,6 min, ermənilərin sayı 1 min, rusların sayı isə 0,3 min nəfər artmışdır.

"1917-ci il üçün Qafqaz təqvimi"ndə verilmiş məlumatlar 1916-cı il yanvarın 1-nə olan vəziyyətlə bağlıdır və həmin dövrdə də Qazax qəzasında əhalinin sayında və etnik tərkibində nəzərə çarpan dəyişikliklər qeydə alınmamışdır. Qəza əhalisi çoxmillətli olaraq qalırdı. Bu dövrdə Qazax qəzasında (Qazax şəhəri ilə birlikdə) 137 049 nəfər yaşayırdı ki, onların 68 016 nəfəri (49,6 faizi) Azərbaycan türkləri, 61 747 nəfəri (45 faizi) erməni, 6 428 nəfəri (4,7 faizi) rus, qalanları isə gürcü və digər xalqların nümayəndələri idi (Kavkazskiy kalendar, 1916). 1915-ci və 1916-cı illərin etno-demoqrafik göstəricilərinin müqayisəsi göstərir ki, müharibənin ikinci ilində azərbaycanlı əhalinin sayı 500 nəfər, ermənilərin sayı 600 nəfər, rusların sayı isə 400 nəfərə qədər artmışdır.

**Nəticə**

Qazax qəzasında əhali dinamikasına dair statistik göstəricilər göstərir ki, XIX əsrin son onilliklərində və XX əsrin əvvəllərində ümumi artım tempi yüksək olmuş, 1860-cı ildən 1913-cü ilə qədər təxminən 50 illik dövrdə əhali 3,7 dəfə artmışdır. Bu artım əsasən kənd təsərrüfatı istehsalının genişlənməsi, yaylaq–qışlaq təsərrüfatının davamlılığı, nisbətən sabit daxili miqrasiya və doğum səviyyəsinin yüksəkliyi ilə izah edilir. Bununla belə, Birinci dünya müharibəsi ərəfəsi və müharibə illərində (1913–1916) əvvəlki sürətli artım meyli zəifləməyə başlamış, 3 saylı cədvəldə əks olunan məlumata görə 1913–1916-cı illərdə ümumi artım cəmi 4 859 nəfər təşkil etmişdir. Bu rəqəm XIX əsrin əvvəlki onilliklərindəki artımla müqayisədə aşağıdır və illik orta artım əmsalının nəzərəçarpacaq dərəcədə zəiflədiyini göstərir. Ümumi artımın zəifləməsinə baxmayaraq, Azərbaycan türklərinin (o dövrün mənbələrində "tatar" adlandırılan) demoqrafik yüksəlişi əsas hərəkətverici qüvvə olaraq qalmış, 1913–1916-cı illərdə ümumi artımın 4 859 nəfərlik hissəsinin 3 967 nəfəri məhz onların payına düşmüşdür. Eyni dövrdə ermənilərin sayı 2 548 nəfər, rusların sayı isə 540 nəfər artmışdır. Fərqin səbəbləri hərbi-siyasi, miqrasiya və təbii artım amilləri ilə bağlıdır: müharibə illərində erməni və rus gənclərinin əhəmiyyətli hissəsi birbaşa cəbhəyə göndərilmiş, Azərbaycan türkləri isə əsasən cəbhəarxası işlərə cəlb olunmuşdur; Şərqi Anadoludan Cənubi Qafqaza, o cümlədən Qazax qəzasına yönələn erməni qaçqın axını etnik tərkibə təsir etsə də, demoqrafik balansı köklü şəkildə dəyişməmişdir; ənənəvi ailə modeli və yüksək doğum səviyyəsi Azərbaycan türklərində təbii artımı dəstəkləmiş, erməni və rus əhalisində isə ailə qurma yaşının daha gec olması və doğum səviyyəsinin nisbətən aşağı qalması ümumi artımı məhdudlaşdırmışdır. Nəticə etibarilə,

Birinci dünya müharibəsinin doğurduğu sarsıntılara baxmayaraq, Qazax qəzasında təbii artımın əsas lokomotivi yerli türk-müsəlman əhali olmuşdur. Müharibə, səfərbərlik və qaçqın axını ümumi artım templərini zəiflətmiş, lakin mövcud statistika göstərir ki, XIX əsrin sonlarından XX əsrin ilk onilliklərinə qədər region çoxmillətli strukturunu qoruyub saxlamaqla yanaşı, say baxımından üstün və müəyyənedici etnos kimi Azərbaycan türklərinin mövqeyini də saxlamışdır. Bu mənzərə həm də sosial-iqtisadi xüsusiyyətləri əks etdirir: təbii artımın nisbətən sabitliyi kənd təsərrüfatı və yarımköçəri maldarlığın dayanıqlığını, mobilizasiya siyasətinin isə etnik qruplar üzrə fərqli təsirini və demoqrafik balansın formalaşmasındakı rolunu göstərir.

**Ədəbiyyat**

Ahmedli, N. (2018). Ön söz. *Qazax nahiyəsinin kameral təsviri, 1860-cı il* (ss. 14–39). Elm və Təhsil.

Bagirov, F. E. (2009). *Pereselençeskaya politika tsarizma v Azerbaydjane (1830–1914 gg.)*. Maroseyka.

Kanadeyev, İ. N. (1902). *Oçerki Zakavkazskoy jizni* (Cilt 1). Tipografiya A. Ye. Kolpinskogo.

Kavkazskiy kalendar. (1868). *Kavkazskiy kalendar na 1869 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1869). *Kavkazskiy kalendar na 1870 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1884). *Kavkazskiy kalendar na 1885 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1886). *Kavkazskiy kalendar na 1887 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1907). *Kavkazskiy kalendar na 1908 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1911). *Kavkazskiy kalendar na 1912 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1912). *Kavkazskiy kalendar na 1913 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1913). *Kavkazskiy kalendar na 1914 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1914). *Kavkazskiy kalendar na 1915 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1915). *Kavkazskiy kalendar na 1916 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Kavkazskiy kalendar. (1916). *Kavkazskiy kalendar na 1917 g.* Glavnoe Upravlenie Namestnika Kavkaza, Otdel Statisticheskiy. Tiflis.

Məhəmmədcəlil, M., & Xəlilli, F. (2003). *Mövlana İsmayıl Siracəddin Şirvani: Həyatı, fəaliyyəti və ardıcılları*. Adiloğlu.

Memmedova, İ. (2012). 19. yüzyılın 80–90'lı yıllarında Güney Kafkasya'nın etnografik haritası (Kars ve diğer bölgeler). *İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi*, 1(2), 87–99.

Memmedova, İ. (2015). 19. yüzyılın 80–90'lı yıllarında Kars da olmak üzere Güney Kafkasya'nın etnografik haritası (Rusya Devlet Askeri–Tarih Arşivinin belgelerine dayanarak). *Yeni Türkiye*, 75(Kafkaslar Özel Sayısı – V), 16–21.

Mustafayev, Ş. (2018). Qazax tarixinə dair dəyərli mənbə. İçinde N. Əhmədli (Ed.), *Qazax nahiyəsinin kameral təsviri, 1860-cı il* (ss. 3–13). Elm və Təhsil.

Naliçnoye naseleniye oboyego pola po uyezdam, s ukazaniyem preobladayuşih veroispovedaniy i glavneyşih sosloviy. (1905). *Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii 1897 g.* (Vyp. 6). Tsentr. Stat. Komitet M-va Vn. Del.

Naliçnoye naseleniye oboyego pola po uyezdam, s ukazaniyem çisla lits preobladayuşih podnıh yazıkov. (1905). *Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii 1897 g.* (Vyp. 7). Tsentr. Stat. Komitet M-va Vn. Del.

Naseleniye imperii po perepisi 28-go yanvarya 1897 goda po uyezdam. (1897). *Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii 1897 g.* (Vyp. 1). Tsentr. Stat. Komitet M-va Vn. Del.

Otçet o slujebnoy poyezdke na Kavkaz pomoşnika naçalnika Pereselençeskogo upravleniya İ. İ. Thorjevskogo, iyun 1909 g. (1909). Sankt-Peterburg.

Otnoşeniye gen. Yermolova k gr. Vyazmitinovu, ot 20-maya 1819 goda. (1874). *AKAK* (T. 6, Ç. 1, Dok. 1036). Tipografiya Glavnoye Upravleniye Namestnika Kavkaza.

Segal, İ. L. (1890, Şubat 13). Russkoye poseleniye v Elizavetpolskoy gubernii. *Kavkaz*.
Serebryakov, İ. (1861). *Selskoye hozyaystvo v Yelisavetpolskom uyezde*. Tiflis.

Vedomosti o razdelenii Gruzii na pyati uyezdov, s pokazaniem uyezdnıh gorodov i seleniy… Maya 8-go dnya 1802 goda. (1866). *AKAK* (Pod red. Ad. Berje, T. 1, Dok. 575). Tipografiya Glavnoye Upravleniye Namestnika Kavkaza.

Yeritsov, A. D. (1886). Ekonomiçeskiy byt gosudarstvennıh krestyan Kazahskogo uyezda, Yelisavetpolskoy gubernii. İçinde *Materialı dlya izuçeniya ekonomiçeskogo byta gosudarstvennıh krestyan Zakavkazskogo kraya* (T. 2, Vyp. 3). Tipografiya A. A. Mihelsona.

Zubarev, D. (1836a). Kazahskaya distansiya. İçinde *Obozreniye rossiyskih vladeniy za Kavkazom, v statistiçeskom, topografiçeskom i finansovom otnoşeniyah* (Ç. II, ss. 213–248). Tipografiya Departamenta Vneşney Torgovli.

Zubarev, D. (1836b). Şamşadilskaya distansiya. İçinde *Obozreniye rossiyskih vladeniy za Kavkazom, v statistiçeskom, topografiçeskom i finansovom otnoşeniyah* (Ç. II, ss. 251–263). Tipografiya Departamenta Vneşney Torgovli.